# BANM KİTABXANASINDA DAVRANIŞ QAYDALARI

## GİRİŞ

**Kitabxana istifadəçilərini aşağıdakılarla təmin edir:**

1. Kitabxana qaydalarına uyğun olaraq, kitabxana materiallarının əldə olunması və geri qaytarılması;
2. Komplektləşdirilmiş və qeydiyyata salınmış kitab, jurnal və digər sənədlər;
3. Təhlükəsiz kitabxana mühiti və kitab kolleksiyası;
4. Ali məktəbin tədris və tədqiqat proqramlarına uyğun materiallar.

## QADAĞAN OLUNMUŞ HƏRƏKƏTLƏR

**Aşağıda təsvir olunan davranış qaydaları yol verilməzdir:**

1. Kitabxanaçının icazəsi olmadan kitabxana sənədləri və ya hər hansı kitabxana ləvazimatını kitabxanadan çıxartmaq;
2. Kitabxana materialını təyin olunmuş vaxtdan gec qaytarmaq;
3. Kitabxana materialının bir və ya bir qrup şəxslər üçün gizlədilib saxlanması;
4. Kitabxana materiallarında qeyd aparmaq vərəqlərini cırmaq və ya ləkə salmaq, həmçinin kitabxana avadanlıqlarına zərər yetirmək;
5. Kitabxanada yemək və içmək;
6. Kitabxanada və ya ona yaxın ərazidə siqaret çəkmək.

## KİTABXANADA DAVRANIŞ QAYDALARI

1. Kitabxanada mümkün qədər səssizliyə riayət olunmalıdır;
2. Oxucu kitabxanaya daxil olarkən BANM tələbə biletini kitabxana əməkdaşına təqdim etməlidir;
3. Kitabxanada əməliyyatları səssiz olan portativ kompüter və mobil cihazların istifadəsinə icazə verilir;
4. Oxucuların diqqətini yayındıran, onları narahat edən və kitabxana materiallarına ziyan vuran cihazların (məs. mobil telefon, fotoaparat, rəqəmsal skaner və s.) istifadəsi qadağandır. Həmçinin fərdi qaydada kitabxanada şəkil çəkdirmək və ya çəkiliş aparmaq da qadağandır;
5. Kitabxana fonduna və oxucularına təhlükə yaradan və göstərilən qaydalara əməl etməyən istənilən oxucu kitabxana əməkdaşı tərəfindən uzaqlaşdırılacaq.